**MƏDƏNİYYƏT DÜNYASI**
Elmi-nəzəri məcmuə
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti,
XXXVII buraxılış, Bakı, 2019

**МИР КУЛЬТУРЫ**
Научно-теоретический сборник
Азербайджанский Государственный Университет Культуры и Искусств,
XXXVIIвыпуск, Баку, 2019

**THE WORLD OF CULTURE**
Scientific-theoretical bulletin
Azerbaijan State University of Culture and Art, XXXVIIedition, Baku, 2019

**UOT 7 (091)**

**Əli Əliyev**
**Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) müəllimi**
**Bakı Xoreoqrafiya Akademiyasının dissertantı**
**AZ 1014, Bakı şəhəri, Rəşid Behbudov 75**
**E-mail: alismayıl@mail.ru**

# XALQ RƏSSAMI FƏRHAD XƏLİLOVUN YARADICILIĞININ MÜASİR - NOVATORÇU MƏRHƏLƏSİ

**Xülasə:** Bu məqalədə xalq rəssamı Fərhad Xəlilovun çoxşaxəli yaradıcılığının realizmdən sonrakı avanqard-mücərrəd dövrü tədqiq olunur. Təqribən son 20-25 illik zaman məsafəsində rəssam bu sahədə çoxsaylı əsərlər yaratmış və bununla da, müasir incəsənətdə ölkəmizdən kənarda da özünəməxsus yer tutmuşdur. Eyni zamanda bu əsərlər yaradıcılığının ilkin dövrünün fikir fəlsəfəsi olaraq davamı hesab edilir.
**Açar sözlər:** mücərrəd, müasir, yaradıcılıq, avanqard, əsər, torpaq, fikir, forma, təsvir, sərt, dövr.

XXI əsrin başlanğıcından biz Fərhad Xəlilov yaradıcılığında onun əvvəlki realist natural mənzərələrdən artıq şərti-rəmzi mücərrəd üsluba keçdiyini, daha dəqiq desək yeni əsrin başlanğıcından onun novatorçu işlərinin də başlanğıcını görürük.

Rəssamın son 25-30 illik yaradıcılığında tamaşaçılara yönəlmiş təsir gücünün, psixi təlqinin, eləcə də fikir monumentallığının səbəblərindən biri də bu işlərin rəngkarlıqda qəbul edilmiş ölçülərdən çox böyük olmasıdır.

Əgər rəssam yaradıcılığının birinci mərhələsində Abşeron torpağını, onun hər bir halını - fəsillərini, landşaftını göstərirdisə, bu işləri realizmin ona məxsus bir üslubunda işlənirdisə, yaradıcılığının son 25-30 ilində o artıq tam modern və novatorçu bir üslubda işləyərək tək Abşeron yox, artıq qlobal, ümumi məkan səviyyəsinə qalxmışdır. Bu ümumi məkanda onun tabloları artıq rəssamın demək istədiklərini, göstərmək istədiklərini fəlsəfi bir dillə izah edir. Buradakı ünvan artıq Abşeron deyil, bütün dünyadır. Bu əsərlərdə elə biz bu dünyanı rəssamın yaratdığı dünyanın həm səhərini, axşam və gecəsini, həm dənizini, həm də onun min bir halını görürük. Bu işlər artıq tək azərbaycanca deyil həm də bütün dillərdə dil açıb "danışır". Burada izah və

tərcüməçiyə ehtiyac yoxdur. Buradakı fəlsəfə, psixi - emosional təsir, bir çox halda isə böyük rəng kütlələrinin magiyası hamıya, hər kəsə tam olaraq çatır və anlaşılır. Bəlkə də bu işlər müasir dövrümüzü güzgü kimi bizə bir daha göstərir. Bütün halda bu böyük ölçülü əsərlərdəki hiss və həyəcan, bəzən də təsvir olunan, həyəcanı əvəz edən sakitlik və yüngüllük göz qabağındadır. Sanki bu işlərdə, müəllif dünyaya yaxınlaşan hansısa bir təhlükənin ilkin eskizlərini çatdıraraq insanları bu barədə xəbərdarlıq edir. Bu təhlükəni rəssam seçdiyi sərt və soyuqluqla təqdim edir. Və bütün halda, tamaşaçıya yönləndirilmiş, psixi cəhətdən təsir edən, onu öz girdabına, cənginə salan təlqin vasitəsi bu əsərlərin böyük ölçüdə olması səbəblərindən biridir.

Hər nə olursa olsun, XXI əsr və bu əsrdən başlayan qloballıq dövrü həm incəsənət və musiqidə həm siyasət və iqtisadiyyatda və demək ki, həm də insan psixologiyasında dəyişiklik tələb edir. Bax, bu dövrlə ayaqlaşa bilən, dövrün nəbzini tuta bilən az-çox sənətkarlar içərisində F.Xəlilov da vardır. Onun haqqında danışdığımız, ikinci dövr novatorçu işləri gerçəkdən müasir və qloballaşan dövrü ifadə edir. Elə yaradıcılığındakı üslub dəyişikliyi də XXI əsrin tam başlanğıcına, bəlkə də bir az əvvələ təsadüf edir. Sanki rəssam yeni əsrə yeni, dünyəvi bir üslubla girir. Bu əsərlərində biz həm məkan və zamanın, həm də əsərlərindəki təsvir vasitələrinin birlik və kompaktlığını, bir bütöv halda təqdim olunmasını görürük. Və təbii ki, artıq bu əsərlərdə göstərilən ünvan tək Abşeron deyil, bütün dünyanı əhatə edir.

Onun dünyanı, əslində isə sirli dünyanı göstərdiyi işlər, rəssamın əsasən "Qəfil baxış", "Görüş" və "Torpağın naxışları" seriyasından olan işlərində toplanmışdır. Təbii ki, bu seriyaların hər hansı birinə daxil olmayan işləri də var ki, onlar da həmin dövrlərdə işlənmişdir və rəssamın müasir, novatorçu üslubunu ifadə edən ayrı-ayrılıqda müstəqil kompozisiyalardır. Bu kompozisiyalar yeni əsrlə uyğunlaşan, bu əsrlə bir növ paralelləşən və bu dövrə aktual olan bir üslubda olan əsərlərdir.

Onun 2003-cü ilə aid, kətan üzərində akrillə işlənilmiş "Qəfil baxış" seriyasından olan 100 x 160 ölçüdə ola əsərə baxaq. Əsər müstəvinin eni boyu işlənmişdir. Burada qara və ağ kütləsinin bir-birinə şərti olaraq girişini görürük. Qara və ağ özlüyündə bütöv olaraq təsvir edilsə də onlar bir-birinə yaxmalarla keçid edirlər. Qara rəng formatın üst və sağ tərəfindən, ağ isə sol və alt tərəfindən kətanda diaqonal təşkil edirlər. Əsərdə sanki bu keçid təqribən qaranlıq fonda hər hansı bir baxış surəti nəticəsində deformasiya olmuş bina, arxa fon isə qaranlıq və bəlkə də ulduzlu səmanı xatırladır. Biz artıq bu əsərdə rəssamın özünün forma yaratmağının şahidi oluruq. Amma bu mərhələyə qədər isə, rəssam artıq mövcud forma və kanonlardan imtina etmiş olmalıdır ki, o öz yeni, kosmik və bəlkə də magik əsərlərində öz rejissorluğunu, öz quruculuğunu istədiyi formada göstərə bilsin. Elə müasir üslublu neo işlərində də biz artıq bunun şahidi oluruq.

Bu əsərdəki paradoks isə qəfil bir baxışın hər hansı bir obyektə zillənib dayanması əvəzinə, burada əksinə, obyektdəki yaxmaların və təyin edə bilmədiyimiz ağ və qaranın hərəkəti və oynamasıdır.

Rəssamın 1993-2003-cü illərə aid "Torpağın naxışları" seriyasından olan, kətan, akril, 100 x 140 ölçüdə olan işi tamaşaçını mənsub olduğu dünyadan başqa bir məkana, başqa bir qalaktikaya aparır sanki. Əsər bizə kosmik bir təəssürat verir. Artıq bu tabloda onun hansı obyekti və necə işləməsi söhbət mövzusu deyildir. Çünki burada konkret olaraq heç nə tapa bilmirik. Əsərdə bir-birinə diaqonal olaraq və üçbucaq təşkil edən və birtonlu yaxın rəng koloritinin növbələşməsi bizə sadəcə yer kürəsinin kosmosdan bir növ

görüntüsü təəssüratını verir. Bu üçbucaq diaqonal görüntülərdən hansısa yer kürəsinin yaxın küncü, hansı biri isə səmadakı kəhkəşanlıq, başqa biri bulud dənizləri, digəri səma ilğımıdır - və bütün bunlar artıq bütün dünyanı özünün bir tablosunda, yeni və müasir formada görmək istəyən Fərhad Xəlilovun Abşeron məktəbindən müasirliyə - neo avanqardizmə gedən yaxud gələn yoludur... Bu yolda isə rəssam kimə isə bənzəmədən, amma nə vaxtsa yaradıcılığa lap yeni başlayarkən sevdiyi, özünə kumir hesab etdiyi rəssamların yaradıcılığından qidalanaraq, mücərrəd, bəzən yarımücərrəd, yeni, müasir dünya incəsənətini müəyyən edən sənətkarlar sırasındadır.

Biz rəssamın müasir üslublu işlərindən danışarkən, unutmamalıyıq ki, bu mərhələyə qədər o bir neçə yaradıcılıq mərhələsi keçmişdir və bu mərhələlər, əslində bir-birinin davamıdır. Bütün yaradıcılığının təməlini qoyduğu nisbətən özünəməxsus - yaradıcı -real üslub dövründə isə o yaradıcılığa əsasən mənzərə - məişət janrında başlamışdır. Bu mənzərələr əsasən Abşeron və onun landşaftını, şəhər ətrafı və doğma Xəzəri təsvir etdiyi mənzərələr idi. Artıq bu real mənzərələrində biz Avropa avanqardizmini görürdük. İkinci yaradıcılıq dövründə isə əvvəlki epizodik avanqardizm ön plana keçərək, artıq onun müasir işlərinin əsas xəttinə çevrilmişdir. Amma bütün halda unutmayaq ki, Fərhad Xəlilov yaradıcılığının bütün mərhələlərində, eyni zamanda ilk baxışdan tam dünyəvi mücərrəd-avanqard işlərində də, onun milli kökü, azarbaycançılığı, eyni zamanda Azərbaycan mədəniyyəti və incəsənətinin tarixi köklərinə bağlılığı hiss olunur.

Bu gün isə Fərhad Xəlilov həm Azərbaycan, həm də Avropa və Rusiya sənətşünasları tərəfindən mücərrəd minimalist - novatorçu, avanqardçı hesab olunur. Amma bütün bunlar kağız üzərində belədir. Onun əsərləri ilə rəssamın emalatxanasında şəxsən bu sətirlərin müəllifinin - canlı təması zamanı bu şablonların onun əsərlərini tam ifadə etmədiyini gördüm. Əslində bu əsərlər sadəcə öz müəllifinin hərtərəfli, geniş erudisiyalı, öz fikri, hətta öz forma yaradıcılığı olan bir müasir rəssamındır. Abşeron ev və kəndlərini daim tərənnüm edən, onun qumlu təpələrini, Xəzərlə növbələşən landşaftını sonrakı mərhələlərdə müasir novatorçu səviyyəyə qaldıran rəssam öz milli köklərini dünyəviləşdirərək daha qlobal bir coğrafi auditoriya qazanır.

Müəllifin 2006-cı ildə işlədiyi "Torpağın naxışları" seriyasından olan, ölçüsü böyük 150 x 200 olan daha bir əsəri bundan əvvəl tədqiq etdiyimiz əsər tipindədir, lakin burada sanki yer kürəsinə daha uzaq bir baxış nöqtəsindən baxır və nəzərlərimiz orada planetlər və onların hərəkət trayektoriyalarından gələn naxışlarda dayanır.

Rəssamın "Torpağın naxışları" seriyasından olan 150 x 200 ölçülü daha bir böyük işi 2003-cü ilə aiddir. Biz burada "naxış"ın bur mücərrəd, sırf rəngarəng bir həllini görürük. Buradakı rəng yaxmalarının istiqaməti də sanki bir uçurum kənarından qayalıqlarda bitən yaşıl kolları və içindən aşağıya doğru tökülən şəlalələri ifadə edir.

Ən azından bu əsərdə torpağın oyanışını, onun bitirən bir mənbə olmasını bu rəngarənglikdə duyuruq. 2007-2008-ci illərdə işlədiyi, böyük ölçülü - 200 x 300 daha bir "Torpağın naxışları" seriyasından iş. Bu iş təsiredici, rəngkarlıq kanon və hüdudlarından çıxan böyük kətan üzərinə işlənmişdir. Elə bəlkə də buna görə, hardasa real, özünəməxsus bütöv sahələrlə verilmiş bir şumlanmış qəhvəyi rəngli torpaq, onun uzaqda tündləşən arxa planı, daha uzaqda sarı səmalı şəfəqli buludlar və çox gözəl rəngə malik göy səma. Ümumiyyətlə yeri gəlmişkən qeyd edim ki, Fərhad Xəlilovun rəng duyumu və bunun nəticəsində də rəng koloriti çox fərqlidir. Məsələn bu əsərdə tamaşaçı ön plandakı qəhvəyi və arxa plandakı göy rəngin təsirindən çıxa bilmir. Onun ifasında bu rənglər də

fərqlidirlər. İkinci plandakı qəhvəyi rəngin tündlüyü qaraya bənzəsə də qara rəng deyil və palıdı və göy rəngin qara ilə neytral qarışığıdır. Ümumiyyətlə rəssamın əsərlərindəki qaralar xalis qara deyil, əsasən onlar müxtəlif, isti və yaxud soyuq çalarlıdırlar, eyni zamanda çox gözəl rəng çalarlarına malikdirlər.

Dediyimiz kimi həm məkan, həm də forma yaradıcılığı onun müasir işlərində əsas yer tutur. Bu əsərlərin bəzilərində ön plan bəzi əsərlərindəki kimi stasionar xarakterli olsa da, bu planı tamamlayan orta və arxa planda fəlsəfi forma yaradıcılığı tam gücü ilə özünü göstərir. Biz bunu 2009-cu ildə işlədiyi "Qəfil baxış" seriyasından olan 150 x 200 ölçüsündəki böyük işində görürük. Əsərdə bəlkə də tez-tez rast gəldiyimiz bir qumlu sahil-müstəvi üzərində iki divar təsvir olunmuşdur. Bundan arxada isə qəfil baxışdan yaranan və bəziləri də anlaşılmayan, amma əsərə bir balans və təəssürat verən ciddi formaları görürük. Bu formalar ciddi olduğu qədər də soyuqdur və başladığı sakit sahil kimi, sakit bir səmada qurtarır.

Ümumiyyətlə rəssamın müasir mücərrəd işlərində fikrini tək forma və üslubuna xas olan xətlərlə deyil, eyni zamanda rəng kontrastları ilə də verir. Bu baxımdan 2007-2008-ci illərdə işlədiyi, 200 x 200 ölçülü "Görüş" seriyasından olan əsəri çox maraqlıdır. Bu əsər əslində real olmayan bir fikrin real təqdimatı kimi çox maraqlıdır və burada qara və qırmızı rəngin yaratdığı kompozisiya nəticəsində iki ədəd düzbucaqlının yaratdığı monument, yaxud formanı görürük. Bu vəhdət, bu birlik müxtəlif fikirlərlə bərabər, hər hansı bir fikrin forması olaraq dirəniş və birliyi ifadə edə bilən bir təəssürat verir. Eyni zamanda bu işdə sürreal meyllər də var.

Haqqında danışdığımız bu seriyaların hər üçü, xüsusən "Qəfil baxış" və "Torpağın naxışları" daha çox müasir avanqard üslubunda icra edilir. Bu əsərlərdə artıq sənətin bütün mərhələlərini keçmiş, müxtəlif ifadə vasitələrindən istifadə etmiş və özünə lazım olan, görmək istədiyi, vermək istədiyi və daha çox gizlətmək istədiyi gizlinləri sirr pərdəsi ilə örtülü şəkildə dünyaya təqdim edir. 2005-ci ildə işlədiyi "Torpağın naxışları" əsəri də bizə müəllifinin demək istədiyinin sirr pərdəsi altında olduğunu xatırladır. 100 x 200 ölçüsündə horizontal işlənmiş bu əsər tünd qara fonda ağ rəng yaxmalarının hərəkətli təsvirini verir. Eyni zamanda yaşıl rənglə haşiyələnən bu xətlər əslində qədim kilim və fərməşlərimizdəki naxışları təkrar edir. Bu naxışlar tabloya nəzərən diaqonal işlənmişdir ki, bu da onların hərəkətdə olması assosiasiyasını verir.

Rəssamın realizm və mücərrədlik astanasında, bəzən tərəddüd etdiyi, bəzən isə hara gedişinin bəlli olduğu elə işlər var ki, bu iki dövrü birləşdirir və birindən digərinə keçidi ifadə edir. Onun 1997-ci ildə, kətan, akrillə 90 x 220 ölçüsündə olan "Yaz" işi bizə bu təəssüratı verən əsərlərindədir. Əsər eninə - horizontal formada işlənmiş, ön planda su yaxud göl, sonra yaşıl düzənlik çəmən və mavi səmadan ibarət nisbətən real səpgidə işlənmişdir.

Ön planda, yaşıllıq üzərində bənövşəyi rəngdə bütün əsərin eni boyu sanki çətir kimi açılan, çiçək açmış şaftalını xatırladan ağac işlənmişdir. Bu ağacın nə gövdəsi, nə də budaqları var. Sadəcə hər şey açıq bənövşəyi rəngində ağac və ağacları xatırladır və heç şübhəsiz bu ağac Abşeronda bahar gələr-gəlməz, qışla baharın keçid dövründə bütün ağaclardan tez açan, baharı müjdələyən şaftalı ağacıdır. Bax bu əsərdə nisbətən real boyalarda verilmiş yaz mənzərəsi fonunda bir rəmzi formada verilmiş, yarı mücərrəd düşüncəsinin məhsulu olan, tək öz çiçəyinin rəngində həm çiçəklərini, həm gövdə və budaqlarını əvəz edən, həm də naxış şəbəkəyə bənzəyən bir az da simmetrik naxış - ağacları görürük. Bu naxış şəbəkənin arasından horizonta qədər uzanan göy çəmənlik və

oradan başlayan səma - bir sözlə baharın oyanışına sevinən bir Vətən görürük. Ön plandakı su isə hələ yaz günəşinin isidə bilmədiyi, amma ağac və torpağa, inkişafa təkan verən mənbədir. O soyuq da olsa həyat mənbəyi olaraq qalır. Ümumiyyətlə bu işdə ön plandakı su, arxada təsvir olunmuş torpaq sonra hava (yel) və torpaq üzərində təsvir olunmuş şəbəkə - ağacı od, tonqal kimi qəbul etsək, onda biz yazın gəlişinin dörd ünsürünü də qarşımızda görürük.

Eyni zamanda əsəri bütün horizont boyu əhatə eləmiş naxış - ağac - şəbəkə həm də simmetrikdir. Bu simmetriklik də fikir olaraq Novruzun astronomik dəqiqliyinə, onun bir bayram olaraq məntiqi və düzgün qiymətləndirilməsi anlamındadır. Bir sözlə bu astronomik Qanunu rəssam bu cür ifadə etməklə bayrama öz töhfəsini vermişdir.

Qənaətimizcə, bu iş bütün parametrləri ilə Bahar bayramını tam ifadə edir və Fərhad Xəlilov yaradıcılığında mühüm yer tutan işlərdən biridir.

2004-cü ildə kətan üzərində akrillə işlənmiş, 100 x 100 ölçüsündə olan "İrəliyə cəhd" tablosu. Bu əsər də tam mücərrəd üslubda işlənmişdir. Burada fikrin ifadəsi diqqəti cəlb edir. Hətta əsərin adını oxumayan tamaşaçı belə, əsərin mənasını anlaya bilər. Burada aşağıdan yuxarıya doğru çəkilmiş müxtəlif sivri, nizə uclu fikir-xətlər məqsədə doğru yönələrək, açıq - ağ fonda öz tündlükləri ilə həm kompozisiyanı, onun balansını tamamlayır həm də fikri ifadə edirlər. Eyni zamanda bu əsərdə rəssamın öz fəlsəfi fikrini vermək üçün yaratdığı yeni bir formanı görürük.

1977-2006-cı illəri əhatə edən "Xatirələr" seriyasından olan 300 x 150 ölçüsündə, şaquli formada işlənilmiş əsəri. Əsər baxdığımız anında elə diqqəti cəlb edir və ora qoyulan fikri tamaşaçıya oxutdurur: tam tünd göy fonda nisbətən açıq göy bənövşəli çalarlı səmada təsvir edilmiş ay və onun dənizə düşən işıq parıltılarını görürük. Dəniz sahilində özümüzü hiss etdiyimiz bu aylı gecənin əsas gözəlliyi də ayın su üzərinə düşən işıq reflekslərinin pianino dilimləri kimi musiqili və nəğməli olmasındadır. Tünd qara-göy su-dənizin üzərindəki bu işıq dilimlərində açıq bildiyimiz bütün rəngləri görürük, amma bu aktivlik əsərin məğzinə ancaq gözəllik qatır ki, bu gözəlliyi də tam girdə ayın forması və sərbəst yaxmaların ona verdiyi gözəllikdə bir daha duyuruq. Suda əks olunan refleksılər həm də bir pilləkən, yaxud dediyimiz musiqi dilimləri kimi sanki xatirələri, bəlkə də bu xatirələri yaradan mərhələləri ifadə edir.

Belə avanqard fikir və formaları rəssamın 2008-ci ildə 200 x 264 ölçüsündə işlədiyi "Qəfil baxış" seriyasından olan işində, eyni zamanda 2006-cı ildə, 200 x 200 ölçüsündə işlədiyi "Torpağın naxışları" əsərlərində də görürük. Bu hər iki əsərdə artıq naturallıq şərti olaraq saxlansa da, rəssamın yaradıcılığına yaxın olmayan tamaşaçı burdakı fikir və formaları öz fikir hazırlığı olmadan duya bilməz. Bu zaman ən azından rəssamın yaradıcılığı tarixi ilə tanışlıq, onunla yol getmək, onun əsərlərini, bu əsərlərdəki fəlsəfəni tamaşaçı üçün açmağa kömək edər.

Biz nə qədər çalışsaq da, nə qədər üslublar saysaq və Fərhad Xəlilovu bu üslubların hər hansı birisinə, yaxud bir neçəsinə aid etsək də, görünən budur ki, rəssam hər bir əsərə və bu əsərin icrasına, buradakı forma və öz fəlsəfi fikrinin ifadəsinə müxtəlif cür yanaşır, əsərin mənası və bu əsərdən gələn tələbatdan asılı olaraq onu icra edir. Buna görə də hər hansı bir "izm" müəllif üçün daimi bir qəlib deyildir. Elə Fərhad Xəlilovun da müəyyən "izm" əsirlərindən fərqi, özünün fikirlərini nəyinsə əsiri etməmək, onlara azad ifadə hüququ vermək və bunun nəticəsində də yaradıcı azadlıq, fikir və forma azadlığı içərisində yaşayıb yaratmasıdır.

Artıq bu gün dünyada sayılıb seçilən rəssam bütün bu uğurlara gəldiyi yolun özününkü olması sayəsində gələ bilmişdir. Bu yolu isə rəssam yaradıcılığı ərzində qurub yarada bilmişdir. Elə bu məqaləmizdə onun işıqlandırdığımız müasir avanqard üslublu işləri də gəldiyi, yaxud davam etdiyi yolun nəticəsində qazandığı yaradıcılıq yoludur.

**Али Алиев**

**Современный новаторский этап творчества Народного художника ФархадаХалилова**

**Резюме**

В статье рассматриваются работы, относящиеся к постреалистическому абстрактно-новаторскому периоду его творчества. В промежутке последних 25 лет художник создал в этой области много произведений, благодаря которым занял достойное место в европейской и азербайджанской живописи. Эти работы являются продолжением философской мысли автора, работ первого - реалистического периода.

**Ключевые слова:** абстрактный, современный, творчество, авангард, произведение, земля, форма, изображение, суровый, эпоха.

**Ali Aliyev**

**Innovative stage of creativity People's artist Farhad Khalilov**

**Summary**

This article discusses the work of the Peopleartist Farhad Khalilov, relating to the post-realistic abstract-innovative period of creativity. In the interval of the last 25 years, the artist has created many works in this field, as a result of which he occupies a significant place in European and Azerbaijani painting. These works are a continuation of the philosophical thought of the author, the works of the first - realistic period.

**Keywords**: abstract, modern, creativity, avant-garde, work, earth, form, image, austere, era.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 06.03.2019**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 13.03.2019**
**Məqalənin çapa qəbul olunma tarixi: 10.04.2019**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Bayram Hacızadə**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2019-cu il, 09 saylı qərarı ilə çap olunur**